# Nikah öncəsi müayinədən keçmək zamanın tələbidir

İki gənc ailə həyatı qurarkən təkcə özləri barədə deyil, dünyaya gətirdikləri övladları barədə də düşünməlidirlər. Belə ki, gələcək valideynlərin sağlamlığı həm də onların dünyaya gətirəcəkləri körpənin sağlamlığının təminatı deməkdir. Əbəs yerə deməyiblər ki, sağlam uşaq sağlam ailədə böyüyür.

Sağlam ailənin formalaşması üçün gənclərin ailə həyatı qurmazdan əvvəl tibbi müayinədən keçmələri dünyaya göz açan uşaqların xəstəliklərlə doğulmasının qarşısının alınması və ailələrin şən, firavan həyat sürmələri üçün atılan ilk addım kimi dəyərləndirilə bilər. Sağlam doğulmaq hər bir insanın haqqıdır. Əgər valideynlər bilə-bilə dünyaya xəstə uşaq gətirirlərsə, bu əslində yeni doğulan uşağın sağlamlıq hüququnu kobud şəkildə pozmaqdır.

İki gənc nikaha daxil olmazdan öncə tibbi müayinədən mütləq keçməlidir. Lakin bəzi gənclər həmin müayinədən yayınırlar. Şəxsən mən tibbi müayinədən yayınanları savadsızlıqda deyil, məsuliyyətsizlikdən irəli gələn zərərli vərdişlərdən yaxa qurtara bilməməklə günahlandırıram. Elm və texnikanın yüksək səviyyədə inkişaf etdiyi, gənclərimizin dünyagörüşlərinin genişləndiyi müasir dövrdə artıq hamı dünyaya sağlam uşaq gətirməyin vacibliyini anlayır. Bir çoxumuz hətta xəstə gen daşıyıcıları olan gənclərin də vaxtında tibbi müdaxilənin köməyi ilə sağlam uşaq dünyaya gətirdiklərindən xəbərdarıq. Bütün bunları bildiyimiz halda nikahdan öncə tibbi müayinədən keçmək məsələsi cəmiyyətdə hələ də birmənalı qarşılanmır. Kimisi tibbi müayinədən keçməyi özünə təhqir hesab edir, kimisi gənclərin sevgisinə qarşı qanun kimi dəyərləndirir. "Qohum-əqrəba nə deyər", "el-obadan ayıbdır" kimi düşüncə tərzi olan insanlar da çoxluq təşkil edir. Kimisi də sadəcə məsuliyyətsizlik edib sonradan qarşılaşa biləcəyi acı nəticələri düşünmədən müayinədən yayınır.

Ailə məcəlləsinə dəyişikliklər edildikdən sonra nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə ərizə verdiklərindən 1 ay sonra onların iştirakı ilə bağlana bilər. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi üzrə məsləhətlər yerli tibbi müəssisələrində pulsuz həyata keçirilir. Nikaha daxil olmaq istəyən şəxslərə onların tibbi müayinəsinin nəticələri ilə yanaşı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış verilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış tibbi müayinədən keçmə faktını və tibbi məsləhətin verildiyini təsdiq edir və həmin şəxslərin tibbi müayinəsinin nəticələri əks etdirmir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir. Nikaha daxil olmaq barədə ərizəyə nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini tısdiq edən arayış əlavə olunur.

Sözügedən qanun bu il yanvarın 1-dən qüvvəyə mindi. İndi hər bir nikaha girmək istəyən cütlük ərizə ilə VVAQ orqanına müraciət edərkən, yaşadıqları yerdə tibbi müayinədən keçmək barədə arayışı da təqdim etməlidirlər. Gənclər qeydiyyatda olduqları ərazinin poliklinikasında dövlət hesabına müvafiq tibbi müayinələrdən keçir və müayinənin nəticələri həmin poliklinikanın səlahiyyətli həkimi tərəfindən yalnız onların özünə elan olunur. VVAQ orqanına diaqnozun göstərilmədiyi, yalnız icbari tibbi müayinədən keçmək barədə arayış verilir. Həmin şəxslər xəstə və daşıyıcı olmaları barədə məlumatlandırıldıqdan sonra evlənmək barədə özləri qərar verirlər. Bu zaman seçim hüququ onların özünə aiddir. Lakin tibbi müayinədən keçmək barədə sənədi olmayan cütlüklərin nikahı VVAQ tərəfindən qeydə alınmır, onların rəsmi nikahı bağlanmır.

Odur ki, nikaha daxil olmaq istəyən şəxslər sağlam ailənin formalaşması üçün tibbi müayinədən keçmə qaydasına əməl etməlidirlər. Bunu nikaha daxil olmaq istəyən hər bir vətəndaş Ailə Məcəlləsinə əsasən hazırlanmış Qanuna əməl etməklə həyata keçirməlidir.

**Zinyət BAĞIROVA,**
**Qəbələ Rayon Qeydiyyat Şöbəsinin rəisi.**

# Cəmşid Naxçıvanskinin 120 illik yubileyi qeyd edilmiş



Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq görkəmli hərbi xadim Cəmşid Naxçıvanskinin 120 illik yubileyi qeyd olunmuşdur. Rayon Mərkəzi Kitabxanasında keçirilən tədbirdə əvvəlcə böyük sərkərdənin şəkillərindən, onun haqqında yazılan kitablardan, qəzet və jurnallardan hazırlanmış sərgiyə baxış keçirilmişdir. Sonra rəsmi hissə başlanılmışdır. Çıxış edənlər Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Naxçıvanskinin hərb tariximizdəki müstəsna xidmətlərindən, bacarıqlı sərkərdə kimi keçdiyi şərəfli döyüş yolundan və göstərdiyi şücaətlərdən danışmışlar. Qeyd edilmişdir ki, istedadlı hərbi xadim qısa ömür yaşamasına baxmayaraq, Azərbaycanın hərb tarixində mühüm iz qoymuşdur. O, istər çar Rusiyası ordusunda, istər Azərbaycan Xalq Cümhuriyyəti (1918—1920-ci illər) dövründə, istərsə də sovet hakimiyyəti illərində hərbi andına sədaqət göstərərək mövcud dövlətə şərəflə xidmət etmiş, yüksək ixtisaslı hərbi kadrların hazırlanmasında fəal mövqe tutmuşdur. Sonda bu cür tədbirlərin gənclərin milli mənəvi, hərbi vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində mühüm rolu olduğu vurğulanmışdır.

**«Qəbələ».**

# Maraqlı sərgi

Qəbələ şəhər 5 saylı tam orta məktəbin bu lıb. Sərgidə müəllifin 30-dan çox əl işi nümayiş



dərs ilində istifadəyə verilmiş yeni yaraşıqlı binasında şəhər 3 saylı tam orta məktəbin rus dili və ədəbiyyatı müəlliməsi Xalidə Əzizovanın əl işlərindən ibarət sərgi açıolunur. Əl işlərinin əsas mövzusu təbiət təsvirləridir. Xalidə müəllimənin müəllifi olduğu əl işləri sərgisi tamaşaçıların böyük marağına səbəb olub.

Müəllif deyir ki, uşaqlıqdan arzusu təbiət təsvirinə həsr olunmuş lövhələr yaratmaq olub. Çox sevinirəm ki, bu arzumu reallaşdırmışam və bu işlərə tamaşaçıların, xüsusən gənc nəslin marağı məni yeni lövhələr yaratmağa həvəsləndirir.

**"Qəbələ".**
**Foto İ. Vəlizadənindir.**

## Rayon tarix-diyarşünaslıq muzeyində

# Ekskursiyalar davam edir...

Son günlər Qəbələ rayon Tarix-diyarşünaslıq muzeyinin ziyarətçilərinin rəy kitabında qonaqların imzaları çoxluq təşkil edir. Rusiya Federasiyası, Qazağıstan, Türkiyə, Böyük Britaniya və sair ölkələrdən gələn turistlər muzeyimizə baş çəkmişlər. Zəngin ekspozisiyaya malik muzeyimiz haqqında dəyərli ürək sözlərini rəy kitablarına qeyd etmişlər. Numuzimatika sərgisində nümayiş olunan materiallar daha çox diqqət çəkmişdir. Çox zəngin olan bu sərgi tarixi baxımdan əhatəli və daha qədimdir.

## Dəyirmi masa

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində Milli Məclisə V çağırış deputat seçkiləri ilə əlaqədar olaraq dəyirmi masa keçirilmişdir. Bildiyimiz kimi hər bir bölgənin əhalisi tərəfindən xüsusi olaraq seçilən nümayəndələr xalqımızın görən gözü, haqq səsidir. Dəyirmi masada bütün bunlarla əlaqəli məsələlər müzakirə olunmuşdur. Hər kəs bu seçkilərdə fəallıq göstərəcəyini söyləmişdir.

## Sərgi

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində 18 oktyabr Milli Müstəqillik günü ilə əlaqədar olaraq geniş sərgi təşkil olunmuşdur. Muzeyin direktoru Xalis Məmmədov həmin günün tarixi haqqında geniş rəsmi məlumatlardan,tutarlı mənbələrdən,tarixi fotolardan və kitablardan ibarət sərgiyə yeni - yeni materiallar əlavə etməkdədir.

## Eksponat qəbulu davam edir

Xalqımızın mənəvi sərvətlərini qoruyan Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyi fəaliyyətini genişləndirməkdədir. Zəngin olan ekspozisiya bütün ziyarətçilər tərəfindən vaxtaşırı olaraq izlənilir. Bu cür ekspozisiyanı yeniləmək üçün əhalidən eksponat qəbulu davam etməkdədir. Yerli əhalidən xalqımızın tarixini əks etdirən dəyərli hər nə varsa muzeyimizə hədiyyə etməklərini xahiş edirik.

**«Qəbələ».**